# Üzeyir bəy Hacıbəylinin 140 illik yubileyi çərçivəsində növbəti tədbir keçirilib

**Üzeyir bəy Hacıbəylinin ev-muzeyində dahi bəstəkarın 140 illik yubileyinə həsr olunmuş növbəti tədbir keçirilib. Tədbiri giriş sözü ilə ev-muzeyin direktoru, Azərbaycanın Xalq artisti, bəstəkar Sərdar Fərəcov açıb.**



O, çıxışında Prezident İlham Əliyevin sərəncamı ilə keçirilən yubiley tədbirlərinin əhəmiyyətini vurğulayıb və Üzeyir bəy Hacıbəylinin Azərbaycan və dünya musiqi tarixində müstəsna yerini qeyd edib, onun zəngin yaradıcılıq irsinin qorunub-saxlanmasının vacibliyinə diqqət yönəldib.

Xor kollektivinin bədii rəhbəri, Əməkdar müəllim Təranə Yusifovanın rəhbərliyi ilə təqdim olunan musiqi proqramı çərçivəsində Beynəlxalq Muğam Mərkəzində fəaliyyət göstərən və Cahangir Cahangirovun adını daşıyan xor kollektivi çıxış edib. "Leyli və Məcnun" operasından bəstələr, "O olmasın, bu olsun" operettasından duetlər, "Arşın mal alan" operettasından əsərlər, xalq mahnıları və bəstəkarın digər əsərləri səsləndirilib.

Tədbirin sonunda sənətşünaslıq üzrə fəlsəfə doktoru, Əməkdar mədəniyyət işçisi Səadət Təhmirazqızı Üzeyir bəy Hacıbəylinin yaradıcılığı, xor kollektivinin fəaliyyəti haqqında fikirlərini bölüşüb. Muzeyin ekspozisiya və kütləvi tədbirlər şöbəsinin müdiri Vəfa Bağırzadə xor kollektivinə və onun rəhbəri Təranə Yusifovaya muzey adından təşəkkür məktubu təqdim edib.

Azərbaycan.- 2025.- 13 aprel (№72).- S.10.